Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 199 (1327) 27 oktyabr - 28 oktyabr 2016-cı il

# İNDİ GÖYÇAYDA BÜTÜN MƏSƏLƏLƏRİN ANA XƏTTİ YALNIZ YÜKSƏLİŞDƏN KEÇİR

(əvvəli ötən sayımızda)

**Daha sonra yığıncaqda deyildiyi kimi hesabat dövründə əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində müəyyən tədbirlər həyata keçirilmişdir. Göyçay şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidənqurulma layihəsinin ikinci mərhələsində işlər başa çatdırılmış, şəhərdə yaşayan abonentlərə yeni su mənbəyindən içməli su verilişi təmin olunmuşdur.**

Hazırda rayonun Şəhadət kəndinin ərazisində ayrılmış 4,5 torpaq sahəsində şəhərin çirkab sularını təmizləyən qurğu kompleksində tikinti işləri davam etdirilir. Gün ərzində 20 min kub metr çirkab su təmizləmə gücü olan kompleksin tikintisinin sifarişçisi "Azərsu" ASC-dir. Tikinti işləri cəmiyyət tərəfindən keçirilmiş tenderdə qalib gəlmiş "TTŞ İnşaat" MMC-ti və "Alkotaş" birgə müəssisəsi tərəfindən yerinə yetirilir. Tikinti başlanandan obyektdə inzibati binanın, transformator və gözətçi buraxılış məntəqəsinin kompressor binalarının tikintisi əsasən başa çatdırılmış, əraziyə elektrik hava verilişi xətlərini çəkmək üçün elektrik dayaqları quraşdırılmışdır. Əsas tikinti işlərinin cari ilin dekabr ayına kimi, avadanlıqların quraşdırılma və sazlama işlərinin 2017-ci ilin may ayına kimi başa çatdırılması nəzərdə saxlanılır. Hazırda obyektdə 50-ə yaxın usta və fəhlə çalışır ki, bunların da əksəriyyəti yerli sakinlərdir.

Kənd yaşayış məntəqələrinin içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilmiş, rayonun yeraltı içməli su mənbəyi olmayan 6 yaşayış məntəqəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən modul tipli su təmizləyici qurğular istifadəyə verilmişdir. Hazırda rayonun 15 kəndində əhalinin içməli suya olan tələbatı modul tipli su təmizləyici qurğular hesabına ödənilir.

Bütün bunlarla yanaşı kənd əhalisinin içməli su ilə təchizatında müəyyən problem və çətinliklər mövcuddur. Rayonun 12 kənd yaşayış məntəqəsində hazırda heç bir içməli su mənbəyi yoxdur və əhali məişət ehtiyaclarını əsasən kəndləri suvarma suyu ilə təmin edən arxların və kanalların hesabına ödəyirlər. Bu kəndlərdə modul tipli su təmizləyici qurğuların quraşdırılması üçün torpaq sahələri ayrılsa da Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən qurğuların quraşdırılması üçün vəsait ayrılmadığından hələlik bu istiqamətdə iş aparılmır.



Əhalinin elektrik enerjisi və təbii qazla təchizatının yaxşılaşdırılması istiqamətində bir sıra tədbirlər həyata keçirilmiş, "Azərişıq" Səhmdar Cəmiyyətinin podratçı təşkilatları tərəfindən 26 müasir tipli transformator məntəqələri inşa edilmiş, 261 ədəd 10 kv-luq, 135 ədəd 0,4 kv-luq, 1538 ədəd abonent dayağı quraşdırılmış, 100 km. yaxın hava elektrik verilişi xətləri özünü daşıyan izoliyasiyalı naqillərlə əvəz olunmuşdur. Rayon elektrik şəbəkəsinin gücü ilə də elektrik təsərrüfatının qaydaya salınması üçün tədbirlər həyata keçirilmiş, rayon ərazisində 500-dən artıq elektrik dirəyi yeniləri ilə əvəz edilmiş, 26 transformatorun gücü artırılmışdır. Hesabat dövründə rayonun 13 kənd yaşayış məntəqəsinə təbii qaz verilişi bərpa edilmiş və təbii qaz verilişi təmin edilmiş yaşayış məntəqələrinin sayı 42-ə çatdırılmışdır. İlin sonuna qədər daha 5 kənd yaşayış məntəqəsinə təbii qaz verilməsi nəzərdə saxlanılır.Şəhər əhalisinin təbii qazla təminatının yaxşılaşdırılması üçün 2,3 km. uzunluğunda istifadəyə yararsız qaz xətləri yeniləri ilə əvəz edilmişdir. Ödənilməyən böyük məbləğdə debitor borcu olan abonentlərə smart tipli sayğacların quraşdırılması işlərinə başlanılmış və 300-dən artıq abonentə bu tipli sayğaclar quraşdırılmışdır.

> **"Hər bir kənd təsərrüfatı əməkçisi, hər bir fermer, sahibkar, ümumiyyətlə kənd təsərrüfatı ilə məşğul olan və bu sahəyə diqqət yetirmək məsuliyyəti daşıyan təşkilatlar, qurumlar birmənalı şəkildə zəruri olan bütün tədbirləri görməlidilər. Elə etməliyik ki, insanlarımız öz əməklərinin bəhrəsini görsünlər və heç bir ərzaq problemi ilə qarşılaşmasınlar".**
>
> *Azərbaycan Respublikasının Prezidenti*
> *İlham Əliyev*

Bütün bunlarla yanaşı elektrik enerjisi və təbii qazla təchizatda, rabitə xidmətlərinin göstərilməsində nöqsan və çatışmamazlıqlar çoxdur. Transformator və hava verilişi xətlərinə lazımi profilaktiki xidmət göstərilmədiyindən, yaşıl budama işləri vaxtında aparılmadığından küləkli və yağışlı günlərdə enerji verilişində tez-tez fasilələrə yol verilir. Baş vermiş qəza və nasazlıqların operativ aradan qaldırılması təmin edilmir ki, bu da əhalinin haqlı narazılığına, onların rayon icra hakimiyyətinə çoxsaylı müraciətlərinə səbəb olur.

Rayon paylayıcı elektrik şəbəkəsinin direktoru O.Quliyev əhalinin elektrik enerjisi ilə təminatının yaxşılaşdırılması, baş vermiş qəzaların qısa müddət ərzində aradan qaldırılması, elektrik enerjisi ilə təchizatda fasilələrin minimuma endirilməsi üçün lazımi tədbirlər görməlidir.

Əhalinin təbii qazla təminatındakı nöqsanlar da ləng aradan qaldırılır, Qazla təchizatda problemlər mövcuddur. Xüsusən ayın axırıncı günləri və gündüz saatlarında şəbəkəyə buraxılan təbii qazın həcmi azaldılır. Şəhərin bir çox məhəllələrində vətəndaşlar təbii qazın təzyiqinin az olması ilə əlaqədar təbii qazla işləyən su qızdırıcı cihazlardan normal istifadə edə bilmirlər. Son günlər havaların soyuq və yağmurlu keçməsi ilə əlaqədar təbii qazla təchizatdakı problemlərlə bağlı vətəndaşlardan daxil olan müraciət və şikayətlərin sayı xeyli çoxalmışdır. Ağsu regional qaz istismar idarəsinin Göyçay xidmət sahəsinin rəisi Rahim Yusubova dəfələrlə xəbərdarlıq edilmişdir.

Rayon Telekommunikasiya qovşağının rəisi İslam Əliyevin sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində apardığı işlər günün tələblərinə cavab vermir. Şəhər ərazisində hava rabitə verilişi xətlərinin kabel kanalizasiya quyularına köçürülməsi işləri ləng aparılır. Bir çox küçələrdə rabitə dirəkləri istismara yararsız vəziyyətdədir. Rabitə xətləri yer səthinə yaxın olduğundan bir çox yerlərdə nəqliyyata və əhalinin hərəkətinə maneçilik törədir. Bütövlükdə şəhər ərazisindəki rabitə dirəklərinin və hava rabitə verilişi xətlərinin mövcud vəziyyəti şəhərin ümumi arxitekturasına xələl gətirir. Əhaliyə fasiləsiz və keyfiyyətli rabitə xidmətlərinin göstərilməsi sahəsində də nöqsanlar çoxdur.



Rabitə xətlərində baş vermiş qəzaların vaxtında aradan qaldırılması təmin edilmir ki, bu da əhalinin haqlı narazılığına səbəb olur.

### *Tikinti, quruculuq və abadlıq işlərində yeni mərhələ*

Hesabat dövründə tikinti, quruculuq, şəhər təsərrüfatının qaydaya salınması, küçə və meydanlarının abadlaşdırılması istiqamətində müəyyən tədbirlər görülmüşdür.

Şəhərin bütün küçələrindən məişət tullantıları təsdiq edilmiş qrafikə uyğun toplanır, su ötürən bərələr tullantılardan təmizlənir. Şəhərin mənzil fondunun qaydaya salınması istiqamətində əməli tədbirlər görülür. Ölkə prezidentinin 8 oktyabr 2015-ci il tarixli sərəncamına əsasən ayrılmış vəsait hesabına şəhərin mənzil fonduna daxil olan 21, rayon büdcəsinin vəsaiti hesabına 7 çoxmənzilli binada əsaslı təmir işləri aparılmışdır. Şəhər küçələrinin işıqlandırılması istiqamətində tədbirlər davam etdirilmiş, bir sıra küçələrin gecə işıqlanması bərpa edilmişdir. Hesabat dövründə şəhərin Heydər Əliyev prospektində, Z.Bünyadov, Nizami, Həbibi, Xətai, M.Muradov küçələrində, şəhər qəbiristanlığına aparan yolda, bir sıra çoxmənzilli binaların həyətində yeni asfalt örtüyü salınmışdır.

Göyçayın Ağsu və Ağdaş istiqamətlərindəki giriş hissələrində yenidənqurma tədbirləri həyata keçirilmiş, hər iki ərazidə fərdi layihələr əsasında ünvan göstəricisi inşa edilmiş, ərazi abadlaşdırılmış, yaşıllıqlar salınmış, abadlaşdırılan sahələrə dekorativ daşlar düzülmüşdür. 2500 nəfər tamaşaçı tutumu olan mərkəzi rayon stadionu əsaslı yenidən qurulmuş, stadionun giriş qapıları dəyişdirilmiş, mühafizə çəpərləri və istinad divarları yenilənərək mişar daşları ilə hörülmüş, qaçış zolaqlarına yeni asfalt örtüyü salınmışdır.

(ardı gələn sayımızda)

*Məzahir ƏHMƏDZADƏ*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ